**Yunis Əvəz ƏVƏZOV**
Azərbaycan Kooperasiya Universitetinin doktorantı
E-mail: avazovy@gmail.com

# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA SAHİBKARLIĞIN TƏŞKİLATİ-İQTİSADİ VƏ MALİYYƏ MEXANİZMLƏRİ

**Xülasə**

Tədqiqatın məqsədi Qarabağ və Şərqi Zəngəzurda sahibkarlığın təşkilati-iqtisadi və maliyyə mexanizmləri araşdırılmışdır. Postkonflikt ərazilərdə sahibkarlığın inkişaf etdirilməsi imkanları təhlil olunmuşdur. İşğaldan azad olunmuş ərazilərin dirçəldilməsində və infrastrukturun yaradılmasında sahibkarlıq subyektlərinin strateji rolu qeyd edilmişdir. Postkonflikt ərazilərdə sahibkarlığın fəaliyyətinin səmərəli təşkil edilməsi üzrə təkliflər hazırlanmışdır. Tədqiqatın metodu olaraq növbəti metodlardan – analiz, sintez, müqayisə və statistikadan istifadə olunmuşdur. Əlavə olaraq, postkonflikt ərazilərdə sahibkarlığın təşkilati-iqtisadi və maliyyə mexanizmləri problemləri üzrə əsərləri olan müəlliflərə istinad edilmişdir. Tədqiqatın nəticələri kimi isə, ilk növbədə əldə edilmiş nəticələrdən Qarabağ və Şərqi zəngəzurda sahibkarlığın inkişaf etdirilməsində daha təsirli və səmərəli mexanizmlərin hazırlanmasında istifadə etmək mümkündür.

**Açar sözlər:** Azərbaycan, Qarabağ, Şərqi Zəngəzur, sahibkarlıq, sahibkarlığın təşkilati-iqtisadi mexanizmləri, sahibkarlığın maliyyə mexanizmləri.

**UOT:** 332.1
**JEL:** R11; R19
**DOI:** https://doi.org/10.54414/GSYT7229

## Giriş

Dünya ölkələrində olduğu kimi, Azərbaycanda da sahibkarlıq məhsul istehsalı, bütün səviyyələrdə büdcələrin formalaşmasında iştirak, vergilərin ödənilməsi kimi iqtisadi funksiyaları, iş yerlərinin yaradılması, xidmətlərin göstərilməsi kimi bir sıra önəmli sosial funksiyaları yerinə yetirir. Bu gün regionların iqtisadiyyatının formalaşmasında sahibkarlığın əhəmiyyətini qiymətləndirmək çətindir. İstənilən səviyyədə cəmiyyətin inkişafında önəmli amil sahibkarlığın təşkilati-iqtisadi və maliyyə mexanizmlərinin səmərəli tətbiqidir. Sahibkarlığın inkişafında bu və ya digər mexanizmlərin səmərəli tətbiqinin ümumi nəticəsi onun fəaliyyətindən asılıdır. Bununla belə, sahibkarlıq fəaliyyəti sabit deyil, bu, təsərrüfat subyektlərinin coğrafi mövqeyindən, iqtisadi dövriyyənin fazasından və s. asılıdır. Sahibkarlıq fəaliyyətinin intensivliyi xüsusi sahibkarlıq mühitini formalaşdıran amillərdən müəyyən asılılıqda olur ki, bu da həmin fəaliyyətin reallaşdırılması üçün əlverişli və ya əlverişsiz ola bilər.

Azərbaycanın 44 günlük Vətən Müharibəsində qazandığı qələbə gələcək illərin inkişaf planlarında əsaslı dəyişikliklər edilməsi zərurətini ortaya qoydu. İlk olaraq, Qarabağ və Şərqi Zəngəzurun erməni işğalında olan torpaqlarının azad edilməsi problemi həll olundu, Azərbaycan öz ərazi bütövlüyünü təmin etdi və bu ərazilərdə artıq müxtəlif infrastruktur layihələri reallaşdırılıb. Hazırda Azərbaycan güclü dövlət kimi Qarabağ və Şərqi Zəngəzurda həyatı bərpa etmək, hərbi əməliyyatlar zamanı böyük ziyan dəymiş əraziləri dirçəltmək iqtidarındadır. Bu istiqamətdə dövlətin iqtisadi təhlükəsizliyi də nəzərə alınmalıdır. Bütün bunlar həmin ərazilərin dirçəldilməsi zamanı sahibkarlığın təşkilati-iqtisadi və maliyyə mexanizmlərinin hazırlanması və tətbiqi baxımından önəmlidir. Məhz Azərbaycan torpaqlarını işğaldan tam azad edilməsi

sayəsində bu regionlarda sahibkarlıq fəaliyyəti əhəmiyyəli dərəcədə inkişaf edəcəkdir.

**Postkonflikt ərazilərdə sahibkarlığın təşkilati-iqtisadi və maliyyə mexanizmlərinin tədqiqi.** Qarabağ və Şərqi Zəngəzurda sahibkarlığın inkişafı üzrə təşkilati-iqtisadi mexanizmlərinin hazırlanması və tətbiqi zamanı ilk öncə, ona təsir edən əsas obyektiv amillər nəzərə alınmalıdır ki, belə amillər sırasına regionların iqtisadi və coğrafi mövqe, təbii və iqlim şəraiti, demoqrafik, təbii resurs potensialları, əhalinin və region iqtisadiyyatının strukturu və ixtisaslaşması, maliyyə təminatı, sosial-iqtisadi inkişafın səviyyəsi və s. daxildir.

Qarabağ və Şərqi Zəngəzurun iqtisadi inkişafının tarixi qanunauyğunluqları, məşğulluq meyilləri, yüz illər ərzində burada formalaşmış konseptual yanaşmalar, regionların özünün və onların əhalisinin spesifik xüsusiyyətləri nəzərə alınmaqla burada sahibkarlığın inkişafının aktivləşdirilməsi bir tərəfdən həmin ərazilərin inkişafını və tərəqqisini təmin edəcək, digər tərəfdən onların strateji rolunu artıracaqdır. Bütün bunlar Azərbaycanın bir ölkə kimi qüdrətinin ifadəsi olacaq və habelə, bunun sayəsində məcburi köçkünlərimizin dədə-baba torpaqlarına tez bir zamanda qayıtması mümkün olacaq.

Qarabağ və Şərqi Zəngəzurun zəngin iqtisadi və təbii resurs potensialına malik olduğunu nəzərə alsaq, onlardan səmərəli istifadə hazırda sahibkarlığın inkişafında strateji məsələ hesab olunur. İnanırıq ki, bu ərazilərin bütün ehtiyatlarından səmərəli istifadə son nəticədə Azərbaycan iqtisadiyyatının, sahibkarlıq fəaliyyəti sahələrinin şaxələndirilməsinə gətirib çıxaracaqdır ki, bu da yeni artım mənbələrinin formalaşdırılmasına, o cümlədən həmin ərazilərə yeni maliyyələşdirmə mənbələrinin cəlb olunmasına önəmli dərəcədə təsir göstərəcəkdir [1].

Sahibkarlığın təşkilati-iqtisadi və maliyyə mexanizmlərinin hazırlanması və səmərəli tətbiqi yolu ilə Qarabağ və Şərqi Zəngəzurda dinamik inkişafı və iqtisadi fəaliyyət sahələrinin modelləşdirilməsi dövlət siyasətinin tərkib hissəsidir. Məsələn, Sahibkarlığın İnkişafı Fondunun vəsaitlərinin səmərəli bölüşdürülməsi üçün maraqlı və potensial investorların cəlb edilməsinin zəruri olduğu prioritet sahibkarlıq sahələri müəyyənləşdirilir.

Məlumdur ki, Azərbaycanda sahibkarlığın inkişaf imkanlarının artırılması investisiya qoyuluşlarından asılıdır. Azərbaycanın şanlı qələbəsi nəticəsində geri qaytarılan torpaqların bərpası və onların ölkəmizin iqtisadiyyatına inteqrasiyası məqsədilə hər il dövlət büdcəsindən kifayət qədər vəsait ayrılır. Bu proseslərə özəl investorlar da cəlb edilir. Ümumiyyətlə, ərazilərin gələcəkdə investisiya cəlb etmək potensialı çox yüksəkdir. İşğaldan azad edilən ərazilərdə sahibkarlığın genişləndirilməsi məqsədilə bütün sahələr üzrə investisiyaların stimullaşdırılması zərurətə çevrilmişdir. Bu gün Azərbaycan Qarabağın investisiya potensialını dünyaya nümayiş etdirir. Bunu 2020-2023-cü illər ərzində Qarabağ və Şərqi Zəngəzurda mikro, kiçik və orta sahibkarlıq (MKOS) subyektlərinə yönəldilmiş əsas kapitalın həcminin artım dinamikasından da görmək olar (şəkil 1).

Şəkil 1-dən 44 günlük Vətən Müharibəsində qazanılan qələbənin ilk illərində MKOS subyektlərinə əsas kapitala yönəlik investisiyaların əsas hissəsi Qarabağa yönəldildiyi təqdirdə, artıq 2023-cü ildə Şərqi Zəngəzura daha çox yönəldilmişdir. 2023-cü ildə Qarabağda əsas kapitala 210322,9 min AZN vəsait yönəldilib ki, bunun 5,7%-i mikro, 62,7%-i kiçik, 31,6%-i isə orta sahibkarlıq subyektlərinə yönəldilib. Şərqi Zəngəzurda bu göstəricilər müvafiq olaraq belə olmuşdur: 250247,0 min AZN-dən 0,01%-i (Ancaq Laçın rayonuna – 28,6 min AZN) mikro, 1,08%-i kiçik, 98,91%-i isə orta sahibkarlıq subyektlərinə yönəldilib. 2021-ci ildə Şərqi Zəngəzura 17500,0 min AZN yönəldilib ki, bunun da hamısı mikrosahibkarlıq subyektləri üzrə olmuşdur.

Qarabağ və Şərqi Zəngəzurda sahibkarlığın inkişafı baxımından stimullaşdırıcı tədbirlərin görülməsi, iqtisadi fəallığın təmin edilməsi, müvafiq infrastrukturun yaradılması ilə bağlı tədbirlərin görülməsi, investisiyaların cəlb edilməsi, həmin regionlarda sahibkarlıq subyektlərinin fəaliyyətinə elmi-texniki üsulların gətirilməsi kifayət qədər mürəkkəb məsələlərdir. Buna nail olmaq üçün investorları və bu sahədə ixtisaslaşmış şirkətləri maksimum dərəcədə

stimullaşdırmaq lazımdır. Azərbaycan hökuməti bu çərçivədə müxtəlif tədbirlər reallaşdırmaqla yanaşı, dövlət iqtisadi siyasətini gücləndirib. Bərpa məsələləri təmin edilib və hazırda Qarabağla yanaşı, Şərqi Zəngəzurda da sahibkarlığın dirçəldilməsi baxımından müxtəlif xarakterli dövlət proqramları icra olunur. Bütün bunların strateji rolu ondan ibarətdir ki, Azərbaycanda həmin regionların tarazlı inkişafı üçün əlavə stimullar formalaşa, habelə ölkə iqtisadiyyatı milli səviyyədə qarşıya qoyulmuş sosial inkişaf məqsədlərinə nail ola bilsin [3, s.29].

**Şəkil 1.** Qarabağ və Şərqi Zəngəzurda MKOS subyektləri üzrə əsas kapitala vəsaitlərin həcmi.




**Mənbə:** [2] əsasında hazırlanmışdır.

Hazırda dövlət-özəl əməkdaşlığının stimullaşdırılması investisiya fəaliyyətinin reallaşdırılmasının ən səmərəli formalarından biri hesab edilə bilər. Qloballaşma şəraitində dövlət-özəl əməkdaşlığı daxili və beynəlxalq əmtəə və maliyyə axınlarının bir-birinə nüfuz etməsi nəticəsində ölkələr və ölkə daxilində iqtisadi məkanın ayrı-ayrı hissələri arasında iqtisadi, ərazi və sosial əlaqələrin möhkəmləndirilməsi vasitəsi kimi çıxış edir. Dövlət-özəl əməkdaşlığının güclənməsi ilə infrastruktur şəbəkələrinin, magistral boru kəmərlərinin, dəniz və hava limanlarının, su, qaz, istilik, enerji təchizatı sistemlərinin maliyyələşdirilməsinə yerli, eləcə də özəl xarici kapitalın cəlb edilməsi imkanları yaranır. Çünki, infrastrukturun inkişaf səviyyəsi iqtisadiyyatın digər sahələrinin investisiya cəlbediciliyinə, biznesin maliyyə fəallığına və ölkənin dünya bazarında rəqabət qabiliyyətinə və beynəlxalq əməkdaşlıqda iştiraka hazır olmasına təsir göstərir. Xarici kapitalın dövlət-özəl əməkdaşlıq prinsipləri əsasında cəlb edilməsi Qarabağ və Şərqi Zəngəzurun qlobal iqtisadi məkana inteqrasiyasına, istehsalın idarə edilməsi və təşkili sahəsində lazımi təcrübə və qabaqcıl texnologiya əldə edilməsinə töhfə verə bilər. İqtisadi fəallığın təmin edilməsi məqsədilə bu sahələrdə xüsusi güzəştli iqtisadi rejimlərin tətbiqi investisiya cəlbediciliyi baxımından böyük önəm daşıyacaqdır və bunun üçün də kifayət qədər imkanlar var və həmin sahəyə investisiya qoymaq istəyənlərin sayı da çoxdur. Bu gün Azərbaycan “Qarabağ Azərbaycandır” adlı müxtəlif beynəlxalq sərgilərdə iştirak etməklə Qarabağın investisiya potensialını dünyaya nümayiş etdirir [4, s.40].

Qarabağda və Şərqi Zəngəzurda sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq imkanlarının genişləndirilməsi üçün həmin regionlarda sahibkarlıq subyektlərinin fəaliyyətinin kreditləşdirilməsi zəruridir. Kreditləşdirmə hesabına təsərrüfat subyektləri öz fəaliyyətlərinin səmərəliliyini artırmaqla yanaşı, yerləşdiyi bölgənin ixrac imkanlarını da artıra bilərlər. Burada kredit münasibətlərinin rolunun artması

həmin bölgələrin iqtisadiyyatının gələcək bərpasından, işgüzar fəallığın artmasından və kreditlərin əhatə dairəsinin genişlənməsindən asılı olacaqdır. Statistikaya diqqət yetirsək, Vətən Müharibəsindən sonra Şərqi Zəngəzur bölgəsinə yalnız 2024-cü ildə 9514 min AZN həcmində (o cümlədən 5292 min AZN qısa, 4222 min AZN isə uzunmüddətli) kredit qoyulmuşdur. Odur ki, biz əsasən Qarabağa yönəldilən kredit qoyuluşlarının artım dinamikasını nəzərdən keçirə bilərik (şəkil 2).

**Şəkil 2.** Qarabağ iqtisadi rayonu üzrə kredit qoyuluşları.




**Mənbə:** [5] əsasında hazırlanmışdır.

Şəkil 2-dən görünür ki, Qarabağın işğaldan azad edilməsi ilə bu bölgəyə kredit qoyuluşlarının həcmi artmışdır. Əgər 2020-ci ildə Qarabağa yönəldilən kredit qoyuluşlarının həcmi 57106 min AZN idisə, artıq 2021-ci ildə 4,6 dəfə artaraq 265003 min AZN olmuşdur. 2024-cü ildə 2020-ci ilə görə 8,3 dəfə artaraq 473231 min AZN olub.

İnanmaq mümkündür ki, yaxın gələcəkdə bu ərazilərdə iqtisadiyyatın yüksək texnologiyalı sahələri inkişaf etdiriləcək, sahibkarlığın inkişafı baxımından daha səmərəli mexanizmlər hazırlanacaqdır. Bunlara çevik və məhsuldar texnologiyalara malik istehsal və emal zonalarının yaradılması, həmçinin yaradıcı və səmərəli xidmət müəssisələrinin təşkili daxildir. Bütün bunlar onu göstərir ki, Sahibkarlığın inkişafı hesabına tədqiq etdiyimiz iqtisadi rayonlarda inkişaf daha məhsuldar və davamlı olacaqdır [6, s.69].

**İşğaldan azad olunmuş ərazilərdə sahibkarlığın təşkilati-iqtisadi və maliyyə mexanizmlərinin təkmilləşdirilməsi yolları.** Qarabağ və Şərq Zəngəzurun dirçəldilməsi proseslərinin əsas elementlərindən biri həmin regionlarda insanların yaşam səviyyəsini yaxşılaşdıracaq önəmli infrastruktur obyektlərinin yaradılmasıdır. Məlumdur ki, sahibkarlıq sektoru iqtisadiyyatda yüksək dəyər yaradan sahə olaraq istehsal gücünün artırılmasında önəmli rol oynayır. İqtisadi inkişafın davamlı təmin olunması üçün isə sahibkarlıq fəaliyyətinin müxtəlif dəstək mexanizmləri ilə gücləndirilməsi önəmlidir. Bu mexanizmlər arasında sənaye parkları ən səmərəli vasitələrdən biri hesab edilir. Sənaye parkları dedikdə, sahibkarlıq fəaliyyəti üçün zəruri infrastrukturla və idarəetmə mexanizmləri ilə təmin olunmuş, müasir texnologiyaların tətbiqi ilə rəqabətə davamlı məhsulların istehsalı və xidmətlərin göstərilməsi məqsədilə istifadə olunan, sahibkarların inkişafına və fəaliyyətinin effektivliyinə şərait yaradan xüsusi ərazilər nəzərdə tutulur [7, s.34].

Hazırda Ağdam şəhərində yaradılan Ağdam Sənaye Parkı regionda sahibkarlığın inkişafına önəmli töhfə verir. Ağdam Sənaye Parkının yaradılması işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı abadlıq və quruculuq tədbirlərinin tərkib hissəsi kimi

böyük önəm daşıyır. Bu parkın fəaliyyətinin əsas məqsədləri arasında dayanıqlı iqtisadiyyatın formalaşdırılması, əhalinin həmin ərazilərdə daimi məskunlaşmasının təşviqi, dövlət-özəl əməkdaşlığının genişləndirilməsi və zəruri stimulların tətbiqi dayanır. Azad olunmuş torpaqlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi və dövlət-özəl tərəfdaşlığının inkişafı üçün həmin park vasitəsilə əlverişli şərait yaradılır. Burada fəaliyyət göstərən sahibkarlar üçün müxtəlif vergi və gömrük güzəştləri, imtiyazlar nəzərdə tutulmuşdur. Sərəncam, ümumilikdə, Qarabağda və Şərqi Zəngəzurda iqtisadi fəallığın artırılması, investisiya mühitinin yaxşılaşdırılması, müasir infrastruktur sahələrinin yaradılması, innovativ texnologiyaların tətbiqi, sənaye potensialının reallaşdırılması, ümumilikdə sahibkarlıq fəaliyyətinin təşviq olunması və bu məqsədlə stimullaşdırıcı mexanizmlərin tətbiqini nəzərdə tutur [8].

Qarabağ və Şərqi Zəngəzurun potensialı və təbii sərvətləri sahibkarlığın inkişafı istiqamətində Azərbaycana böyük fayda verəcək. Bu regionların torpaqların sərvətini saymaqla bitməz. Onların qədim quruluşu polimetal yataqlarının zənginliyi ilə tanınır. Bu torpaqlarda yüzdən artıq müxtəlif növ filiz, qızıl, civə və mis ehtiyatı vardır. Burada tikinti materialları, sement, əhəng xammalı kimi ehtiyatlardan səmərəli istifadə hesabına qeyri-neft sektorunun inkişafında böyük addımlar atmaq mümkündür. Azərbaycan hazırda ixracyönümlü iqtisadiyyatda belə məhsullar istehsal edildiyini nəzərə alsaq, o zaman Qarabağın və Şərqi Zəngəzurun təbii sərvətləri hesabına sahibkarlığın inkişaf imkanlarının genişlənəcəyini gözləmək olar.

Filiz ehtiyatları ilə zəngin regionda dağmədən və metallurgiya sənayesinin inkişafı gözlənilən vəzifələrdən biridir. Dünya təcrübəsində mədən sənayesi ilə turizmi birlikdə təsəvvür etmək çətindir, lakin bu regionun xüsusiyyətləri bu iki sahəni birlikdə inkişaf etdirməyə imkan verir. Deyə bilərik ki, lazımi infrastruktur bərpa edildikdən sonra buraya kifayət qədər investor cəlb olunacaq. Çünki dövlətin bu sahələrin inkişafında maraqlı olduğunu nəzərə alsaq, o zaman dövlət özü bura investisiya qoymaq istəyən sahibkarlara əlavə şərait yaradacaq.

Ümumiyyətlə, Azərbaycan sahibkarları azad edilmiş ərazilərdə təbii sərvətlərin işlənməsində, onların hasilatı və emalı sahəsində müəyyən təcrübəyə, investisiya imkanlarına, ixtisaslı kadrlara, ixrac imkanlarına malikdir. Azərbaycan yeni təbii ehtiyatları dövriyyəyə cəlb etməklə Qarabağda və Şərqi Zəngəzurda metallurgiya kompleksinin və mədənçıxarma sənayesinin yüksəlişini təmin etmək potensialına malikdir. Bu regionlarda metallurgiyanın inkişafı isə ölkəmizdə bəzi sənaye sahələri kimi hərbi sənayenin də inkişafını sürətləndirəcək. Beləliklə, Azərbaycanın işğaldan azad etdiyi ərazilərdəki meşə, su və torpaq ehtiyatları kənd təsərrüfatının, turizmin və emal sənayesinin inkişafına əlverişli şərait yaratmaq qabiliyyətinə malikdirlər. Bu ərazilərin iqtisadiyyatının bərpası burada sahibkarlığın inkişafını daha məhsuldar edəcək və ölkənin çiçəklənməsində əsas istiqamətlərdən birinə çevriləcək.

**Nəticə**

Qeyd edək ki, aparılmış araşdırmalar Qarabağda və Şərqi Zəngəzurda sahibkarlığın inkişafı məqsədilə səmərəli təşkilati-iqtisadi və maliyyə mexanizmlərinin tətbiqi üçün dövlət dəstəyinə və dövlət-özəl əməkdaşlığına ehtiyac olduğunu göstərir. Dövlət dəstəyinin əsas tədbirləri kimi aşağıdakıları məqsədəuyğundur hesab etmək olar:

- sahibkarlıq subyektləri üzrə vergitutma sisteminin təkmilləşdirilməsi;
- xüsusi vergi rejimlərinin yaradılması;
- hesabat sənədlərinin aparılması və təqdim edilməsi prosedurunun sadələşdirilməsi tədbirləri;
- mal və xidmətlərin tədarükçüsü kimi müəssisələrin dövlət satınalmalarına çıxışının genişləndirilməsi;
- sahibkarlıq subyektlərinin güzəştli xarici maliyyələşdirməyə çıxışının təmin edilməsi;
- innovativ fəaliyyətlə məşğul olan sahibkarlığa dövlət dəstəyi infrastrukturunun inkişafı;
- kiçik və iri istehsal müəssisələri arasında əməkdaşlığın stimullaşdırılması;
- inzibati yükün azaldılması;
- sahibkarlar üçün vahid məlumat və xidmət sisteminin yaradılması və s.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Əliyev Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarinin sosial-iqtisadi inkişafinin strateji aspektləri. Ümummilli lider Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "İqtisadi inkişafda qlobal çağırışlar və perspektivlər" mövzusunda Respublika elmi konfransın materialları. Bakı, 2022:33–37.
2. ARDSK. [Elektron resurs]. https://www.stat.gov.az/source/entrepreneurship/.
3. Алиев Ш.Т. Важные аспекты восстановления и социально-экономического развития Карабахского экономического района. V международная научно-практическая конференция. Scientific Goals And Purposes in XXI Century. Сиэтл, США, 2023:27–34.
4. Азизов А.А. Инвестиционный потенциал территорий Карабаха. Азимут научных исследований: экономика и управление. 2021;4(37): 38–41.
5. ARMB-nın hesabatları [Elektron resurs]. https://www.cbar.az/page-40/statistical-bulletin//.
6. Əliyev Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri. Bakı: Geostrategiya, jurnalı. 2021;4:67–72.
7. Yeni Qarabağnamə: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında post-konflikt quruculuğu. Bakı: AzPrint nəşriyyatı, 2022, 217 s.
8. İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. – Bakı, 10 dekabr 2021-ci il. ARMB-nın hesabatları: [Elektron resurs]. https://e-qanun.az/framework/48628.

**Yunis Avaz AVAZOV**
PhD student of Azerbaijan Cooperation University

## ORGANIZATIONAL-ECONOMIC AND FINANCIAL MECHANISMS OF ENTREPRENEURSHIP IN KARABAKH AND EAST ZANGEZUR

### Summary

The purpose of the study – the organizational-economic and financial mechanisms of entrepreneurship in Karabakh and East Zangezur were investigated. The opportunities for developing entrepreneurship in post-conflict areas were analyzed. The strategic role of entrepreneurial entities in the revival of liberated territories and the creation of infrastructure was noted. Proposals were made for the effective organization of entrepreneurial activities in post-conflict areas. The following methods were used as the research method - analysis, synthesis, comparison and statistics. In addition, references were made to authors whose works on the problems of organizational-economic and financial mechanisms of entrepreneurship in post-conflict areas. The results of the study – as, first of all, the results obtained can be used to prepare more effective and efficient mechanisms for the development of entrepreneurship in Karabakh and East Zangezur

**Keywords:** Azerbaijan, Karabakh, Eastern Zangezur, entrepreneurship, organizational and economic mechanisms of entrepreneurship, financial mechanisms of entrepreneurship.

**Юнис Аваз АВАЗОВ**
Докторант Азербайджанского Университета Кооперации

# ОРГАНИЗАЦИОННО-ЭКОНОМИЧЕСКИЕ И ФИНАНСОВЫЕ МЕХАНИЗМЫ ПРЕДПРИНИМАТЕЛЬСТВА В КАРАБАХЕ И ВОСТОЧНОМ ЗАНГЕЗУРЕ

**Резюме**

Цель исследования – изучение организационно-экономических и финансовых механизмов предпринимательства в Карабахе и Восточном Зангезуре. Проанализированы возможности развития предпринимательства в постконфликтных районах. Отмечена стратегическая роль предпринимательских субъектов в возрождении освобожденных территорий и создании инфраструктуры. Предложены способы эффективной организации предпринимательской деятельности в постконфликтных районах. В качестве метода исследования использовались следующие методы – анализ, синтез, сравнение и статистика. Кроме того, были приведены ссылки на работы авторов, посвященные проблемам организационно-экономических и финансовых механизмов предпринимательства в постконфликтных районах. Результаты исследования – прежде всего, возможность использования полученных данных для подготовки более эффективных и действенных механизмов развития предпринимательства в Карабахе и Восточном Зангезуре.

**Ключевые слова:** Азербайджан, Карабах, Восточный Зангезур, предпринимательство, организационно-экономические механизмы предпринимательства, финансовые механизмы предпринимательства.

**Daxil olub:** 26.02.2026